

# TARİXİMİZƏ QAYĞI

*Rayonumuzda ilk muzey 1978-ci ildə "Döyüş şöhrəti" otağı kimi fəaliyyətə başlamışdır. Muzeyin açılış mərasimində əbədiyaşar Prezidentimiz H.Əliyev də iştirak etmiş və fəxri kitaba xoş ürək sözlərini yazmışdır. İndi bu kitab muzeyin qiymətli eksponatları sırasında qorunub saxlanılır.*

1980-cı ildə respublikamızın əksər rayonlarında, o cümlədən Sabirabadda da tarix-diyarşünaslıq muzey açılmış və "Döyüş şöhrəti" otağı onun bir bölməsinə çevrilmişdir. 1998-ci ildə muzey yeni ikimərtəbəli müstəqil binaya köçmüş və burada fəaliyyətə başlamışdır. 3 işçi, 2 fond otağı və 600 kv metr sahəni əhatə edən 6 ekspozisiya zalı mədəniyyət şöbəsinin daxili imkanları, muzey əməkdaşlarının qüvvəsi və səyi ilə qurulub tamaşaçıların istifadəsinə verilmişdir.

Ekspozisiyanı yeniləşdirmək və müasir tələblər səviyyəsində qurmaq üçün yeni mövzuda ekspozisiya planı tərtib edilmiş və onun əsasında muzeyin 10 bölməsində iş aparılır.

Muzeyin əsas fondu getdikcə zənginləşir və 5780 eksponatı əhatə edir. Ümumilikdə isə muzeyə 8000-dək eksponat toplanmışdır. 2003-cü ildə bir milyon manatlıq əşya satınalma yolu ilə muzey fonduna daxil edilmişdir. Fəaliyyət göstərdiyi dövrdə muzeyə fond satınalma komissiyası tərəfindən 119 adda eksponat alınmışdır.

Muzeylərə qayğı tariximizə, milli-mənəvi dəyərlərimizə qayğı deməkdir. Yeni binaya köçdükdən sonra muzeyimizin fəaliyyət dairəsi daha da genişlənmiş, muzey xidməti işinin səviyyəsi yüksəlmişdir. Burada təşkil edilmiş sərgilərə, otaq guşələrə baxışda hər il minlərlə tamaşaçı iştirak edir. Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği ilə əlaqədar muzeydə və muzeydən kənar yerlərdə keçirilən sərgi və guşələr muzeylə kütlələr arasında canlı əlaqə yaradır və daha çox tamaşaçı cəlb etməyə imkan verir. Gənc nəslin vətənpərvərlik tərbiyəsində, estetik zövqün aşılanmasında, milli şüurun formalaşmasında tarixi bayramlarla, əlamətdar günlərlə, milli adət-ənənələrimizin, mədəniyyətimizin və incəsənətimizin təbliği ilə əlaqədar keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir. Beynəlxalq muzeylər günü, "muzeylər baharı" aksiyası ilə əlaqədar "Açıq qapı" günləri, "Dəyirmi masa" arxasında söhbətlər və s. mövzuda keçirilən tədbirlər tamaşaçılar tərəfindən maraqla qarşılanır.

Ş.Əsgərova,
Sabirabad rayon tarix-diyarşünaslıq muzeyinin direktoru.



